

*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.*

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

6 avqust 2020-ci il
Cümə axşamı

№ 27 (3492)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


## Prezidentin Mətbuat Xidmətindən

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 31-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana, Qazaxıstan Respublikasının birinci Prezidenti Nursultan Nazarbayevə, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaniyə telefonla zəng edərək müqəddəs Qurban bayramı ilə əlaqədar təbrik edib, firavanlıq arzulayıb.

*****

İyulun 31-də Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edərək müqəddəs Qurban bayramı ilə əlaqədar təbrik ediblər.

## İşsizlik sığortası ilə bağlı müzakirə aparılıb

Bu qanunun qəbulu əlavə 40-50 min nəfərə işsizlikdən sığorta pulu vermək imkanı yaradacaq.

Bununla bağlı qanun layihəsi avqustun 4-də Milli Məclisin Əmək və sosial siyasət komitəsində müzakirə olunub. Layihəyə əsasən, dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, işçilərin sayı və ya ştatların ixtisar edilməsi əsasında əmək müqaviləsinə xitam verilmiş şəxslər üçün sığorta stajı üç ildən bir ilədək azaldılır. Dəyişikliyə əsasən, işsizliyin başlanmasından əvvəlki 24 təqvim ayı ərzində 12 təqvim ayından az, lakin ən azı bir il sığorta stajı olan əmək qabiliyyətli şəxslərə bu qanunda nəzərdə tutulan minimum sığorta ödənişi məbləğində pul ödənilir.

Qanunla minimum sığorta ödənişi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş minimum aylıq əməkhaqqı məbləğinə bərabər tutulur.

## Aztəminatlı ailələr qayğı ilə əhatə olunub

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Qurban bayramı münasibətilə aztəminatlı ailələrə qurban payları və müxtəlif ərzaq sovqatlarının verilməsi başa çatıb.

Aksiya respublika üzrə 100 mindən çox aztəminatlı ailəni əhatə edib.

Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələri aztəminatlı ailələrin evlərinə baş çəkərək onları bayram münasibətilə təbrik ediblər. Ailələrə ətlik cins heyvanların xüsusi ət kəsimi yerlərində kəsilərək ayrı-ayrılıqda qablaşdırılmış paylar və ərzaq sovqatları çatdırılıb.

Bu cür aksiyalarda məqsəd xüsusi qayğıya ehtiyacı olan şəxslərə sosial dəstək göstərmək, müxtəlif bayram və əlamətdar günləri onlarla birlikdə qeyd etməkdir.

## BAKININ EKOLOJİ VƏZİYYƏTİ DÖVLƏT BAŞÇISININ DİQQƏT MƏRKƏZİNDƏDİR



### *Şəhər sakinlərinin istirahətinin təşkil edilməsi üçün görülən işlər rəğbət doğurur*



Avqustun 4-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Yasamal rayonunda salınacaq meşə tipli yeni parkda görüləcək işlərlə tanış olublar.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya parkda görüləcək işlər barədə məlumat verib.

Yaxınlıqdakı çoxmərtəbəli binanın sakinləri mənzillərinin eyvanlarından dövlətimizin başçısını və xanımını salamlayıblar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni parkda görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini veriblər.

Qeyd edək ki, bu layihənin icrası sosial xarakter daşıyır və onun məqsədi paytaxtda aparılan abadlıq-quruculuq işlərinə töhfə verməkdir. Bundan başqa, layihənin özəlliyini artıran daha bir mühüm məqam ərazidə meşə tipli yeni parkın salınmasıdır. Bu, paytaxtın ekoloji vəziyyətinin yaxşılaşdırılması tədbirlərinin mühüm tərkib hissəsi olmaqla yanaşı, ətraf ərazilərdə yaşayan sakinlərin istirahətinin də yüksək səviyyədə təşkil edilməsinə geniş imkanlar yaradacaq.

# Gələcək uğurların təməli qoyulur

### *Prezidentin gündəliyində vətəndaşların sağlamlığı birinci olaraq qalır*

Prezident İlham Əliyev Şimal-Qərb bölgəsinə səfəri zamanı Qobustan və İsmayıllı rayonlarında bir sıra mühüm obyektlərin açılış mərasimlərinə qatılıb. Öncə Qobustan rayonunda olan cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etdikdən sonra koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxananın açılışını edib.

Bakı-Şamaxı-Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun Muğanlı-İsmayıllı-Qəbələ hissəsinin yenidən qurulması layihəsi ilə də tanış olan dövlət başçısı İsmayıllının Basqal kəndində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "DOST Evi" Yaradıcılıq, Sərgi və Satış Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak edib. İsmayıllıya səfəri çərçivəsində Prezidentin iştirakı ilə Muğanlı-İsmayıllı -Təzəkənd-Ağbulaq-Qoşakənd avtomobil yolu yenidənqurmadan sonra istifadəyə verilib. Daha sonra dövlət başçısı İsmayıllıda da koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxananın açılış mərasiminə qatılıb.

Prezidentin iki rayona səfəri çərçivəsində bir neçə sosial obyektin açılışı, "DOST Evi" Yaradıcılıq, Sərgi və Satış Mərkəzinin təməlinin qoyulması əlbəttə ki, ilk növbədə cənab İlham Əliyevin məhz pandemiya ilə mübarizə dövründə həyata keçirdiyi uğurlu sosial siyasətinin əyani təzahürü kimi qiymətləndirilməlidir. Çünki qlobal böhranın digər ölkələr kimi Azərbayan iqtisadiyyatına da zərər vurmasına baxmayaraq ölkədə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında nəzərdə tutulan sosial layihələrin heç biri təxirə salınmır. Hətta ötən illə müqayisədə bu il xalqın rifah halının yaxşılaşdırılmasına yönələn daha çox sosial layihə gerçəkləşməkdədir.

Qobustan və İsmayıllıda 2 modul tipli xəstəxananın, müxtəlif kənd və qəsəbələri birləşdirən yeni yolların açılışı bir daha göstərir ki, həm vətəndaşların sağlamlıqlarının qorunması Prezidentin gündəliyində birinci olaraq qalır, həm də ölkədaxili yol-nəqliyyat infrastrukturunun yenidən qurulması və regionlarda əhaliyə göstərilən sosial xidmətin daha da asanlaşdırılması ilə bağlı nəzərdə tutulan layihələr uğurla reallaşdırılır.

Aylardır dövlət COVID-19-la mübarizə istiqamətində çox mühüm tədbirlər görməkdədir. Məhz bunun nəticəsidir ki, bu gün ölkəmizdə virusla mübarizədə müsbət dinamika müşahidə olunmaqdadır. Azərbaycan dövlətinin koronavirus pandemiyasının yayıldığı ilk günlərdən onunla mübarizə istiqamətində atdığı çox mühüm addımlar sırasında modul tipli xəstəxanaların yaradılması böyük əhəmiyyət daşıyır. Yəni modul tipli xəstəxanaların istifadəyə verilməsi koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmə və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynayır.

Dövlət başçısının müvafiq tapşırıqlarına əsasən, ölkə ərazisində ümumilikdə 10 modul tipli xəstəxana kompleksinin quraşdırılmasına başlanılıb ki, onlardan da bir neçəsinin artıq açılışı olub.

Qobustan və İsmayıllıda modul tipli xəstəxanaların açılışından sonra ölkədə bu tip müalicə mərkəzlərinin sayı 8-ə çatıb. Hazırda üçü Bakıda olmaqla, Sumqayıtda, Gəncədə, və Abşeron rayonunda modul tipli xəstəxanalar fəaliyyətdədir.

Səfər çərçivəsində İsmayıllıda təməli qoyulan "DOST Evi" Yaradıcılıq, Sərgi və Satış Mərkəzi də bir daha Prezident İlham Əliyevin sosial islahatlar proqramının əsas hədəfinin dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsi olduğunu təsdiqlədi.

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 29-da Balakən, Şəki və Qəbələ rayonlarında da səfərdə olub.

Səfəri çərçivəsində Prezident İlham Əliyev Balakən şəhər Uşaq İncəsənət Mərkəzinin yeni binasının, eləcə də Balakən regional "ASAN xidmət" Mərkəzinin açılışında iştirak edib. Mərkəzlə tanışlıqdan sonra dövlət başçısı ASAN könüllüləri ilə görüşüb. Səfər çərçivəsində "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Balakən Avtomatik İdarəetmə və Nəzarət Mərkəzi istifadəyə verilib.

Dövlət başçısı yenidən qurulan Balakən-Qazbinə-İtitala avtomobil yolunun açılışında iştirak edib. Həmin tədbir çərçivəsində Balakən-Hənifə-Gülüzanbinə avtomobil yolunun təqdimatı da olub. Həmin gün Prezident İlham Əliyev Balakən rayonunda "Bal meyvə" bağçılıq Təsərrüfatı ilə tanış olub.

Şəkiyə səfəri çərçivəsində Prezident İlham Əliyev Şəki rayonunun Qoxmuq-Baltalı-Babaratma-Qaradağlı-Qudula-Daşüz avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib, eləcə də koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxanada yaradılan şəraitlə tanış olub.

Daha sonra Qəbələ rayonuna səfər edən Prezident İlham Əliyev Qəbələdə inşa edilmiş modul tipli xəstəxana kompleksində yaradılan şəraitlə tanış olub və Qəbələ rayonunda Əmirvan-Vəndam avtomobil yolunun yenidənqurmadan sonra istifadəyə verib.

Dövlət başçısı yeni yolların da açılışını edərək xeyir-duasını verib. Ümumiyyətlə, ölkəmizdə yol-nəqliyyat infrastrukturunun yenidən qurulması işi uğurla davam etdirilir. Əgər, əvvəllər ən müasir standartlara uyğun beynəlxalq və respublika əhəmiyyətli magistral yolların salınması diqqət mərkəzində idisə, indi yerli əhəmiyyətli yolların inşasına da xüsusi diqqət yetirilir.

Cənab İlham Əliyevin tapşırıqlarına müvafiq olaraq ölkəmizin demək olar ki, bütün yaşayış məntəqələrində mövcud avtomobil yolları əsaslı təmir edilir və ya yenidən qurulur. Şəhər və rayon mərkəzlərini qəsəbə və kəndlərlə birləşdirən yollar, eləcə də qəsəbə və kəndlərin daxili yolları yenidən tikilir.

Bir sözlə, bütün bunlar bir daha təsdiqləyir ki, qlobal böhran dövründə əhalisinin sağlamlığının qorunması ilə yanaşı sosial müdafiənin təmin edilməsi Prezidentin siyasətinin prioritetidir.

# ADI "AZƏRBAYCANLI" OLANLAR

**Almaniyadan doğulduğu torpağa "hücuma" keçmiş, guya öz aləmində hakimiyyətin qəniminə çevrilmiş, özgələrin əmrinə müntəzir olan birinin pandemiya ilə mübarizədə gecəsini gündüzünə qatan, ailəsinin belə qayğıları ilə maraqlanmağa vaxt tapmayan, vətəndaşların sağlamlığı üçün öz canını qurban verən həkimlərimizlə birgə gözəgörünməz düşmənlə savaşda ömrü ilə ölümü arasındakı məsafə bir göz qırpımından az olan Azərbaycan Polisi haqqında yazdıqlarını oxuyandan sonra bir daha əmin oldum ki, suyun üzündə gəzmək üçün İsa olmağa ehtiyac yoxdur. Həqiqətləri görməkdən ötrü insanın bəsirət gözünün açıq olması mütləq imiş.**

Dünyanın inkişaf etmiş güclərinin sırasına qədəm qoyan Qafqaz ölkəsinin varlığına diş qıcayanlar sərhədlərimizdən kənarda çox olsa da onların təsiri hiss olunmaz dərəcədə idi. Lakin SSRİ dağıldıqdan sonra həm onun tör-töküntülərinin, həm də xarici kəşfiyyatın içimizə sızdırdıqlarının çevrəsi genişləndi və sapı özümüzdən olan beşinci kolonçular kabusu formalaşdı. Müstəqilliyimizə yenicə qovuşduqdan sonra baş verənlər, dövlət çevrilişləri, dövlət xadimlərinə edilən sui-qəsdlər əsası iyirminci əsrdə qoyulan və iyirmi birinci əsrdə ustalıqla həyata keçiriləcək planların "əlifbası" idi.



Lakin onların "düzəni"ni Azərbaycanı bölünməkdən və parçalanmaqdan qoruyan, milliyyətindən və dinindən asılı olmayaraq hər kəsi bir bayraq altında birləşdirən ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyası darmadağın etdi. Sabitliyin qarantına çevrilən ümummilli liderin daxili siyasətinin prioritetini ölkədə əmin-amanlıq mühitinin yaradılması təşkil edirdi. Müharibə şəraitində yaşayan bir ölkənin dünyanın böyük neft şirkətlərini təmsil edən dövlətlərin tərəfdaşına çevrilməsi bölgədə sülhün bərqərar olmasına zəmin yaratdı.

Və bu gün hədəflərinə doğru irəliləyən, pandemiya dövründə belə yardıma ehtiyacı olanlara qucaq açan, həm xaricdən, həm də daxildən gələn bəlaların vaxtında qarşısını alan, sərhədlərini pozmağa cəhd edərək təxribat yaratmaq istəyən düşməni yerinə oturdan dövlətin siyasi nüfuzunun günü-gündən güclənməsi, müdafiə deyil, hücum diplomatiyası və hər zaman acı olan həqiqətlərlə "Qarabağ Azərbaycandır və nida" deyib xalqına arxalanaraq dünyanı gerçəklərin gözünə düz baxmağa vadar edən liderin Qafqazın ən güclü ordusu ilə birgə yaxın zamanda Qələbə tarixini yazacağı gün uzaqda deyil.



Xaricdən və daxildən Azərbaycanı istəməyənlərin də əsas qorxusu budur. Adı "azərbaycanlı" olanın şəri, böhtanı başadüşüləndir. O, bunu etməyə məcburdur, çünki onu idarə edənin istəyi, tələbi ilə hərəkət edir. Ən diqqətçəkən məqam isə bu satılmışların Azərbaycan Polisini hədəf götürməsidir.

Əgər illər öncə sərhədlərimizdən kənarda Vətənimiz haqqında "Orda müharibə gedir, yaşamaq üçün yetərincə şərait yoxdur, sabitlik deyil" kimi ifadələrə rast gəlinirdisə, bu gün tam əksini, özü də həmin fikirləri səsləndirənlərin ölkəsində yaşayan, Azərbaycana turist kimi gələnlərdən eşidirik. Multikultural dəyərlərə, insan hüquq və azadlıqlarına hörmət hissi ilə idarə olunan dövlətdə bu gün kimsə dilinə, dininə və milli mənsubiyyətinə görə təqibə məruz qalmır. Konstitusiyamızda əksini tapan hüquqlar birbaşa şəxsin müdafiəçisidir. Bütün strukturlarda innovativ inkişaf, süründürməçiliyə son, özünü təsdiq üçün yaradılan imkanlar dövlətlə vətəndaş arasında daha sıx təmasın qurulmasına xidmət edir. Bu mənada, polis qeyd etdiyimiz kimi hər zaman əl çatandır. Sabitliyi, əmin-amanlığı qorumaqla bərabər polis həm də vətəndaşın maarifləndirilməsində mühüm rol oynayan quruma çevrilib.

Adı "azərbaycanlı" olanlardan Azərbaycan Polisinin bir fərqi də budur ki, o, vətəndaşın canı güvənliyi üzərindən pul qazanmır. Onlar isə düşmənlərimizlə bazarlığa gedir və ən iyrənc yollara əl atırlar. Amerikadan "günahkar Bakı"dır deyən birinin satqınlığının dərəcəsini ölçmək üçün təəssüf ki, elə bir cihaz ixtira olunmayıb. Əli atasının qanına batan düşmənin nümayəndəsinə "həmkarım" deyərək yarınanın, mənlik şüuru da əcnəbiləşən qaragüruhçunun çaldığı zurnanın kimin nəfəsi ilə üfürüldüyü də bəllidir.

Səsi xaricdən gələnlərin sözünə əsgərinə dəstək yürüşünə çıxan Vətən sevdalıları nə qulaq verər, nə də ki, önəm. Bu xalq yaxşı bilir ki, özünü, adını, daşıdığı qanı satanlar, hər an doğulduğu torpağı, Vətəni də satarlar. Əgər belə olmasaydı Tovuz hadisələrindən sonra xaricdə fəallaşan haylarla mübarizədə "adı azərbaycanlı olan" satılmışlar da hər bir şeyi kənara qoyub Azərbaycan naminə lobbimizə dəstək nümayiş etdirərdilər. Ermənilərin xaricdə törətdiklərinə qarşı susqunluq sərgiləməklə özlərini ifşa etdilər, dəyirmanlarına gələn suyun hardan gəlməsi məlum oldu və maskaları cırıldı. Onlar hələ yüz il bundan sonra belə danışa bilməyəcəklər, çünki mövzu Vətəndir. Çünki Azərbaycan hədəfi doqquzluqdan vurub...

Yazımın başlığı xəyalımı yaxın keçmişə çəkdi və Azərbaycan uğurunda döyüşən oğulların sırasında adı azərbaycanlı olmayanları xatırladım. Bu gün onların adı Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Şəhid oğullarımızın sırasında onların da xatirəsini hörmətlə anır və unutmuruq.

**1. Yuri Petroviç Kovalyov (Xüsusi Təyinatlı Milis Dəstəsinin milis nəfər, milis starşinası) 29.11.1965—03.09.1991 (25 yaş)**

**2. Albert Aqarunoviç Aqarunov (AR Müdafiə Nazirliyinin hərbi qulluqçusu, tank komandiri) 25.04.1969 - 08.05.1992 (23 yaş)**

**3. Anatoli Nikolayeviç Davidoviç (AR Silahlı Qüvvələrinin hərbi qulluqçusu, mayor) 28.03.1965—13.06.1992 (27 yaş)**

**4. Ruslan Aleksandroviç Polovinko (AR Hərbi-Hava Qüvvələrinin hərbi qulluqçusu, leytenant) 21.10.1969 - 06.08.1992 (22 yaş)**

**5. Sergey Aleksandroviç Senyuşkin (AR Hərbi-Hava Qüvvələrinin hərbi qulluqçusu, mayor) 15.09.1957 - 29.02.1992 (34 yaş)**

**6. İqor Vladimiroviç Makeyev (AR daxili işlər orqanlarının əməkdaşı, sıravi) 27.10.1971 - 02.08.1992 (20 yaş)**

**7. Viktor Vasilyeviç Seryogin 23.04.1944 - 28.01.1992 (47 yaş)**

**8. Sergey Murtuzəliyeviç Murtuzəliyev 17.11.1963 - 30.08.1993 (29 yaş).**

Adı "azərbaycanlı" olub Vətənə xəyanət edənləri isə nə tarix bağışlayacaq, nə də ki, Azərbaycan xalqı.

***Hafiz Təmirov,***
***polis polkovnik-leytenantı***

# Vətəndaş əmindir ki...

**"Cinayətkarlıqla qətiyyətli mübarizə aparmaq, sabitliyi qorumaq, vətəndaşın xidmətində durmaq qanun qoruyucuları olaraq polisin vəzifə borcudur. Bu vəzifələri layiqincə yerinə yetirməkdən ötrü onlar daha səylə çalışır, peşə vərdişlərini təkmilləşdirirlər. Günün istənilən vaxtında vətəndaş üzləşdiyi problemin həlli üçün müraciət edirsə, o cavabsız qalmır, tezliklə həllini tapır. Hətta polisə aidiyyatı olmayan məsələlərdə də polislər köməklərini əsirgəmirlər. Sevgini, sayğını polis belə qazanır"...**

**Bu fikirlər DİN-ə ünvanlanan təşəkkür məktublarındandır. Demək, vətəndaş görür və qiymətləndirir.**

Ən böyük qazancımız isə vətəndaşların özlərini güvəndə hiss etməsidir.



Məhz buna görə də ünvanımıza söylənən xoş sözlər, yazılan təşəkkür məktubları ruh yüksəkliyimizi artırır, gücümüzə güc qatır. Güvənc yerinə çevrilməyimiz elə də asan başa gəlməyib. Səngərlərdə sıralarımızdan şəhidlər verərək, yollarda çarəsiz qalanların köməyinə çataraq, yanğınlarda həyatımızı riskə atıb həyat qurtararaq qazanmışıq bu adı, bu nüfuzu...

Təriflər bizi yolumuzdan heç zaman sapdırmadı, əksinə, işimizdə yeniliklər edərək haqq-ədalətin yerini tapması üçün var gücümüzlə mücadilə verdik, veririk də. Bütün görülən işlər isə yalnız bir məqsədə-vətəndaş məmnunluğuna, onların rifah halının daha da yaxşılaşdırılmasına xidmət edir...

Masallı Rayon Mərkəzi Xəstəxanasının həkimi Fəxrəddin Əhədovun redaksiyamıza ünvanladığı təşəkkür məktubunda yazdıqları da görülən işə, çəkilən zəhmətə verilən qiymətin bariz nümunəsidir.

"Adətən gecə vaxtı qapı döyüləndə təşvişə düşürük. İlk ağlımıza "görəsən nə olub, bu vaxt kim olar" kimi suallar gəlir. Gələnin kim olduğunu, nə istədiyini bilənə qədər həyəcan bizi yeyib-bitirir. Bir anlıq təsəvvür edin: Küçədən əl-ayaq tamam çəkilib. Hər tərəf zülmətə qərq olub. Allah göstərməsin, başına bir iş gəlsə nə haraynı eşidən olacaq, nə də dadına yetişəcək kimsəni tapacaqsan.

Bu günlərdə gecə saat 03:00 radələrində üç maskalı şəxs qarət məqsədilə pəncərədən evimizə daxil oldu. Nə edəcəyimizi bilmədik, qorxudan donub yerimizdə qalmışdıq. Bizi əllərindəki soyuq silah və küt alətlərlə hədələyərək qızılların və pulların yerini soruşdular. "Qara gün"ümüz üçün topladığımız 1500 manatı, mobil telefonu götürüb mənə və həyat yoldaşıma xəsarət yetirərək qaçdılar...

İlk dəfə idi ki, belə bir hadisə ilə rastlaşırdıq. Dərin sarsıntı keçirmişdik. Onlar getdikdən sonra birtəhər özümüzə gəlib "102"yə zəng vurduq...

Asayiş keşikçiləri yüksək peşəkarlıq nümayiş etdirərək qısa zaman kəsiyində cinayətkarları yaxalayıb qanuna təslim etdilər. Yeri gəlmişkən, bizə dəymiş maddi ziyan da ödənildi".

***Teymur Əlizadə,***
***polis kapitanı***

# Tələb etmək üçün əməl etmək lazımdır

## Sadalananlar diqqətdən kənar qalmır, ictimai nəzarət fəaliyyətdə dönüş yaratmağa kömək edir

1. Polis əməkdaşı normal fiziki və zahiri görkəmə malik olmalı, xidmət zamanı qamətini düz saxlamalı, çevik hərəkət etməyi bacarmalıdır.

2. Polis əməkdaşı xidməti geyim formasını qorumalı, paqonlara və digər fərqlənmə nişanlarına hörmətlə yanaşmalıdır.

3. Xidməti geyim formasında olarkən, polis əməkdaşı özü ilə böyük həcmli əşyalar daşımamalı, hərəkətdə olarkən siqaret çəkməməlidir. Hərəkət zamanı baş geyimi əldə gəzdirilməməlidir. İstər piyada olduqda, istərsə də avtonəqliyyat vasitəsini idarə edərkən polis əməkdaşı yol hərəkəti qaydalarına ciddi əməl etməli, ümumiyyətlə bütün hallarda ətrafdakılara ciddi intizam nümunəsi göstərməlidir.

4. Xidməti geyim formasında olan əməkdaşlar qarşılaşdıqda onların bir-birilə hərbi salamlaşması mühüm xidməti şərt və ətrafdakılar üçün polisdə olan intizamın bariz nümunəsidir.

5. Xidməti geyim formasının tamlığı pozulmamalı, daim təmiz saxlanılmalıdır.

6. Ayaqqabı hər zaman təmiz saxlanılmalı, geyim forması qaydalarına tam uyğun olmalıdır.

7. Polis əməkdaşı zinət əşyalarından, üzük və qolbaqlardan, zəncirlərdən istifadə etməməlidir. Yalnız nişan üzüyü və saat taxmaq olar. Təsbeh gəzdirmək, digər lazımsız əşyalardan istifadə etmək polis əməkdaşının nüfuzuna xələl gətirən hərəkətlərdəndir.

8. Polis əməkdaşı hər zaman öz geyiminə, təmizliyinə və şəxsi gigiyenasına fikir verməlidir:

-səhərlər üzünü təraş etməlidir;

-saç düzümü səliqəli olmalıdır;

-saqqal və bakenbard uzatmamalıdır.

# Məhdudiyyətlər davam edəcək

**2020-ci il 31 avqust saat 00:00-dək ölkə üzrə tətbiq olunan xüsusi karantin rejimi çərçivəsində Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, aşağıdakı məhdudiyyətlər qüvvədədir.**

• ölkə ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxışın dayandırılması; (xüsusi və çarter reysləri istisna olmaqla)

• xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla, sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiq olunduğu şəhər və rayonlara giriş-çıxış və ölkənin digər şəhər və rayonlarından yerustü və hava nəqliyyatı ilə sərnişin daşımalarının dayandırılması; (Naxçıvan Muxtar Respublikası istisna olmaqla)

• ASAN Xidmət və DOST xidmət mərkəzləri istisna olmaqla, digər dövlət orqanlarında vətəndaşların yerində qrup və fərdi qaydada qəbulunun dayandırılması;

• tədbirlərin təşkili üzrə xidmətlərin, o cümlədən bu sahədə müştərinin evində və ya digər məkanlarda ad günləri, toy, nişan və bu kimi mərasimlərin təşkilinin qadağan olunması;

• iri ticarət mərkəzlərinin və molların nəzdində olan uşaq və digər əyləncə mərkəzləri, kinoteatrlar, ictimai iaşə məkanlarının fəaliyyətinin dayandırılması;

• əyləncə məkanları, o cümlədən uşaq əyləncə məkanlarının (bulvar və parkların ərazisindəki daxil olmaqla) fəaliyyətinin dayandırılması;



• idman, sağlamlıq-bərpa üzrə xidmətlərin dayandırılması (bu sahədə tibbi xidmətlər istisna olmaqla);

• mədəniyyət obyektləri, eləcə də kinoteatrların, teatrların, idman zallarının fəaliyyətinin dayandırılması;

• dəfn mərasimləri istisna olmaqla dini ritual xidmətləri, eləcə də mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin təşkili və keçirilməsinin qadağan olunması;

• toy məclislərinin təşkilinin qadağan olunması;

• bütün təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin fəaliyyəti (imtahan, müsabiqə, müsahibələr və müxtəlif arayış və sənədlərin verilməsi ilə bağlı vətəndaş müraciətlərinin qəbulu istisna olmaqla);

• ictimai yerlərdə, o cümlədən küçələrdə, bulvarlarda, parklarda və digər yerlərdə şəxslərin 5 nəfərdən artıq qruplarda cəmləşməsinin qadağan olunması;

• bütün kütləvi tədbirlər, o cümlədən mədəni-idman tədbirlərin keçirilməsinin dayandırılması;

• ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadənin qadağan olunması;

• tibb müəssisələrində müalicə alan şəxslərin xəstə yaxınları tərəfindən ziyarətinin qadağan edilməsi;

• massaj və hamam xidmətlərinin göstərilməsi.

# POLİSİN RƏSSAM ÖVLADI

Ömrünü polis peşəsinə həsr etmək istəyənlərə bu peşənin bərkini-boşunu görənlərin, ağrısını-acısını yaşayanların, saçını-saqqalını cinayətkarlıqla mübarizədə ağardanların ilk tövsiyəsi bu olur: Uğura gedən yol bilikdən, ünsiyyətdən və müşahidədən başlayır. Deyilənlər təsdiqini tapdıqca illər ötür və nəsillər biri-birini əvəzləyir. Elə qazanılmış təcrübə də beləcə nəsildən-nəsilə miras qalır.



Polis ömrü mütləq şəkildə bir qəlibə sığdırılmalıdır və sözün əsl mənasında, özünə nələrisə qadağan etməlisən. Çünki polis hər zaman diqqət mərkəzindədir.



O, qanunvericiliyin tələblərinə uyğun olaraq peşə borcunu yerinə yetirərkən ictimai nəzarətin də üzərində olduğunu hiss etməlidir...

Elə sanmayın ki, bilərəkdən mətləbdən uzaqlaşdım. Xeyr, bunları yazmağı, əslində, özümə borc bildim. Və keçək mətləbə...

Polis ailəsində böyüyən uşaqların da ilk sözü ana, ata olur. Ancaq onları başqalarından fərqləndirən ilk arzularıdır: “Mən də polis olacağam”...

Düzdür, polisdən, həkimdən qorxanlar da böyüyəndə həmin peşələri seçəcəklərini dilə gətirirlər. Arzuya sərhəd yoxdur...

Fatimə gələcəkdə rəssam olmaq arzusundadır. Onunla ilk tanışlığım çəkdiyi rəsmlərdən başladı. Balaca rəssamın çox geniş müşahidə qabiliyyəti var. O, baş verən hadisələrə seyrçi qalmır. Onu yaşıdlarından fərqləndirən əsas xüsusiyyətlərdən biri də budur.

Bu günlərdə Azərbaycanla Türkiyənin birgə keçirdiyi hərbi təlimlərə münasibət bildirməsi, hətta onu şərh etməsi və “1918-ci ildə Bakını azad edən Türk-İslam ordusunda döyüşənlərin nəvələri bu gün də öz qan, can qardaşlarını darda qoymadılar” fikri məni qürurlandırdı.



Yeri gəlmişkən, erməni millətçiləri tərəfindən başımıza gətirilən faciələr, yurd-yuva itkisi, soydaşlarımızın doğma torpaqlarımızdan zorla qovulması, didərgin düşməsi onun fırçasında şəkillənib, kətan üzərinə köçürülüb.




Fatimə beş yaşından rənglərin dilini öyrənir. Ən çox təbiət və Vətənpərvərik mövzularında rəsmlər çəkməyə üstünlük verir. Oxuduğu hər hansı bir bədii əsərdən təsirlənib ruhundakıları bir işıq seli kimi kətana köçürə bilir. Fırça, kətan və bir də boya onun “oyuncaq”larıdır.

Xətai rayonundakı 48 nömrəli məktəbin 6-cı sinif şagirdidir. Dərslərini də yaxşı oxuyur. Süleyman Ələsgərov adına bir nömrəli Uşaq İncəsənət Məktəbinin üçüncü sinfindədir.

Fatimə sabitlik adlı sərvətimizi qoruyanların sırasında xidmət edən, adına və andına sadiq qalan polis övladıdır. **Atası, polis kapitanı Araz Allahyarov DİN Baş Əməliyyat Statistika və İnformasiya İdarəsinin əməkdaşıdır.** Fürsətdən istifadə edib onunla da həmsöhbət olduq. O, da bizim kimi Fatimənin gələcəyinə ümidli olduğunu bildirdi.

Fatimə balamızın, polis övladının, Vətənə, xalqa sevgi ruhunda böyüyən bu Vətən sevdalısının gələcəyin böyük rəssamlarından biri, eləcə də uğurları ilə hər birimizi sevindirəcək Azərbaycanlı olacağına şübhəmiz yoxdur.

Və bu gün Azərbaycanımızı dünyada bilik, idman və incəsənət sahəsində təmsil edən onlarla polis övladı var. Onları tanımaq və tanıtmaq missiyası isə bizim üzərimizə düşür. Bu, həm də Vətən qarşısında borcumuzdur.

***T. Hafiz***

# Ömürlə ölüm arasında

**Oğuzun Şirvanlı kənd sakinləri - əvvəllər məhkum olunmuş, kriminal aləmə meyilli olan Novruz Umarlı və bibisi oğlu Ayaz Balakişiyev kəndin meşəlik ərazisində əvvəlcədən əkib-becərdikləri narkotik tərkibli çətənə kollarına qulluq edərkən “iş başında” yaxalanıblar. Ancaq N.Umarlı törətdiyi cinayət əməlindən yayınmaq üçün qanunsuz olaraq üzərində gəzdirdiyi tapançadan polis əməkdaşlarına atəş açıb. Şöbənin Cinayət Axtarış Bölməsi əməkdaşlarının çevikliyi və peşəkarlığı nəticəsində atəş açan Novruz Umarlı zərərsizləşdirilərək saxlanılıb.**

Qaçmağa çalışan A.Balakişiyev tutulub. Əməliyyat tədbirlərinin davamı olaraq saxlanılan şəxslərin yaşadıqları ünvanlara da baxış keçirilib. A.Balakişiyevin evinin həyətyanı sahəsindən polietilen torbada 91 qramdan artıq qurudulmamış marixuana, eləcə də lüləsi və qundağı kəsilmiş “TOZ” markalı tüfəng, N.Umarlının kənd ərazisindəki evindən isə 37 qrama yaxın marixuana aşkar edilərək götürülüb.



Saytlardakı bu xəbər diqqətimi çəkdi və yadıma məktəbimizdə narkomaniya ilə bağlı tədbirin təşkilatçısı olan Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarının narkobaronlarla mübarizədə həyatını itirən polis polkovnik-leytenantı Namiq Musayev barəsində danışdıqları düşdü. O 2007-ci ildə Cəlilabadda dövlət sərhəddimizi pozaraq İrandan ölkəmizə narkotik vasitələr gətirən cinayətkarları zərərsizləşdirərkən həlak olmuşdu.




Düzdür, günümüzdə belə kriminal xəbərlərə tez-tez rast gəlirik. Ancaq polislə bağlı xəbərlərə cəmiyyətimiz xüsusi həssaslıq nümayiş etdirir. Çünki bu gün həm də polis gündəmin mövzusudur. Məlum pandemiya ilə əlaqədar daxili işlər orqanları səfərbər olunub. Vətəndaşlarımızın sağlamlığı üçün həyatını risk altında qoyanları bəzi ağzıgöyçəklərin gözü götürməsə də asayişi etibarlı qoruyanların, övladlarımızı ağ ölümün cəngindən alanların hansı əziyyətlərə qatlaşdığını biz vətəndaşlar yaxşı görürük. Hadisələrə və ya hər hansı qurumun fəaliyyətinə jurnalist nöqteyi-nəzəri ilə baxmaq sonradan yaranan fikrin hansı səmtə yönəlməsini, onun tənqid, ya da təqdiredici məqalə formasında şəkillənməsini qaçılmaz edir. Azərbaycan Polisinin fəaliyyətinin müzakirə olunmasına ehtiyac yoxdur, sadəcə hər birimiz vətəndaş mövqeyi nümayiş etdirib reallıqları qiymətləndirsək, məsələnin mahiyyətinə vararıq. Məsələnin mahiyyətinə vardıqda isə dövlətin dayaqlarının sarsılmaması üçün polisin hansı çətinliklərə qatlaşdığı, daha doğrusu, onun qutsal görəvi uzaqdan da, yaxından da daha qabarıq görünər.

Polisin bütün çətinliklərə, təhlükələrə rəğmən necə həyat qurtarmasının dəfələrlə şahidi olmuşuq. Ancaq asayiş keşikçiləri özünün təhlükə qarşısında qalmasını, əxlaq normalarını unudanların təhqirlərinə hədəf olmasını gündəmin mövzusuna çevirməyib, çevirməz də. Ən çətin günlərdə xalqın içində olub, ona qucaq açıb, köməyə çatıb, haya tələsib. Amma özünü reklam etməyib. Buna onun ehtiyacı da yoxdur. Azərbaycan Polisi yaxşı bilir ki, xidmətinin qayəsi möhtərəm Prezidentimizin də dediyi kimi, millətin xidmətçisi olmaqdır...

Polis ömrü yaşamaq, polis atası, anası, övladı və ömür gün yoldaşı olmaq çox çətindir. Çünki hər an eşidə biləcəyin xoş və ya bəd xəbərə hazır olmalısan. Etiraf edək ki, cəmiyyət olaraq bəzən riskli peşə sahiblərinin görəvinin çətinliyini deyil, onun prestijini, təsir dairəsini, hətta maaşını belə müzakirə mövzusu etmişik. Lakin kiçik bir mübahisənin sonradan böyük bir münaqişəyə çevrildiyini görəndə tərəfləri ayırmaq, onları qanuna dəvət etmək əvəzinə “nəyimə lazım”la canımızı qurtarmışıq. Polis isə həyatını itirmək təhlükəsi ilə üzbəüz qalsa belə adına və andına sədaqətini nümayiş etdirib...

Ömür ilə ölüm arasında Vətənə xidməti ilə qürur duyan, ən çətinin belə öhdəsindən əzmi, inadı, səbri və dözümü ilə gələn polisin hər anı təhlükə olsa da, o, dünyaya günəş kimi doğan Azərbaycanı qorumaq üçün dünən olduğu kimi, bu gün də ayıq və sayıqdır...

***Elnarə Nəbiyeva,***
***178 nömrəli məktəbin müəllimi***

# Bob Parsons uğurunun sirri nədədir?

O, amerikalı sahibkar və xeyriyyəçi kimi məşhurlaşıb. Go Daddy internet domein xidmətinin yaradıcısıdır. Parsons tərəfindən 1997-ci ildə qurulan bu xidmət 2010-cu il etibarı ilə 45 mln. domein adını idarə etməkdədir. O biznes və şəxsi həyatda qazandığı uğurun sirrini bölüşüb:

**1. Komfort zonanızı tərk edin və ondan mümkün qədər uzaq durmağa çalışın**

Komfort zonasında olan zaman insanın həyatında xüsusi əhəmiyyət kəsb edən hər hansı bir dəyişiklik baş vermir. İnsanlar, əksər hallarda, belə deyirlər: «Mənə sakitlik lazımdır». Mənim isə bu məsələ ilə bağlı yalnız bir cavabım var: «Sakitlik ölülər üçün xarakterikdir».

**2. Heç vaxt təslim olmayın**

Heç bir iş ilk cəhddən uğurlu nəticə vermir. Çox çalışmağınıza baxmayaraq, bir işdə uğur əldə edə bilmirsinizsə, o zaman məyus olmağa dəyməz. Böyük ehtimalla siz məsələyə yalnış aspektdən yanaşırsınız. Əgər sizin seçdiyiniz iş asan başa gəlsəydi, o zaman hamı bu işlə məşğul olar və sizin kimdənsə fərqlənmək şansınız olmazdı.

**3. Əgər siz təslim olmağa hazırsınızsa, bu o deməkdir ki, siz uğura düşündüyünüzdən də yaxınsınız**

Çinlilərdə belə bir deyim var: «Qələbə ərəfəsində təslim olmaq hissi insana hakim kəsilir».

**4. Sizi narahat edən məsələlərə gəldikdə isə çalışın, həmişə hər hansı bir hadisənin ən pis ehtimalına da hazırlıqlı olasınız**

Ən pis vəziyyət barəsində maksimum dərəcədə təsəvvür yaratmağa çalışın. Unutmayın ki, "ən pis" nəticələr heç vaxt «qeyri-müəyyən» nəticələrdən daha pis olmur.

**5. Arzularınıza istiqamətlənin**

Bu qədim deyimi unutmayın: «Fikirlər maddidir».

**6. Bir gün ərzində yerinə yetirə biləcəyiniz işləri öhdənizə götürün**

Unutmayın ki, insan yalnız gün ərzində bacara bildiyi qədər işi öhdəsinə götürməklə, bir çox problemləri həll edə bilər.

**7. Hər zaman irəliyə doğru addımlayın**

Şəxsiyyət kimi təkmilləşməyə çalışın. Unutmayın ki, işinizi daha yüksək səviyyədə icra etməkdən imtina etdiyiniz zaman, uğur sizi tərk edəcək.

**8. Qısa zaman ərzində doğru qərarlar verməyə çalışın**

General Corc Pattonun bu sözlərini unutmayın: «Bu gün ildırım sürətilə hazırlanmış plan sabah üçün nəzərdə tutulmuş ideal plandan hər zaman daha yaxşıdır».

**9. Sizin üçün əhəmiyyətli olan hər şeyi ölçüb-biçin**

Əmin ola bilərsiniz ki, bu üsul işə yarayır. Unutmayın ki, hər zaman nəzərə alınan, müşahidə edilən, daim ölçülüb-biçilən addımlar və qərarlar getdikcə inkişaf etməyə və uğurlu nəticələr verməyə başlayır.

**10. Nəzarətsiz qalan hər bir iş məhv olmağa məhkumdur**

Əgər özünüz üçün əlavə problem yaratmaq istəyirsinizsə, nəzarətsiz buraxdığınız işlərə bir daha nəzər salın. Əmin ola bilərsiniz ki, orada sizi böyük və ciddi problemlər qarşılayacaq.

**11. Öz rəqiblərinizin işlərini diqqətlə izləyin. Amma ən önəmlisi öz işlərinizi nəzarət altında saxlayın**

Rəqiblərinizin işlərini izləyən zaman unutmayın ki, uzaqdan hər şey həmişə ideal görünür. Hətta yer kürəsi də kosmosdan baxdıqda sülh və sevgi dolu bir məkan təsiri bağışlayır.

**12. Heç kimdən qorxmayın**

Hüquqi cəmiyyətdə və bərabərlik şəraitində digər insanlar kimi sizin də istədiyiniz işlə məşğul olmaq hüququnuz var. Təbii ki, əgər bu işin icrası qanun tərəfindən qadağan olunmursa, o zaman onu reallaşdırmaqda heç kim sizə mane ola bilməz. Bu səbəbdən də kimdənsə qorxmaq lazım deyil.

İstənilən şəraitdə bu səbəbi tapmağa çalışın. Bu həyatı yaşadığınıza görə şükür edin və bu fikri unutmayın: «Vacib olan uzun ömür yaşamaq deyil, sənə bəxş edilən ömrü şən və firavan şəkildə yaşamaqdır».

***Ardı 4-cü səhifədə.***

# Sanitar-gigiyena qaydalarını pozanlar cərimələndilər

### Sumqayıtda və Abşeronda məişət tullantılarının qalaqlanması faktları aşkar olunub

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşları tərəfindən sanitar-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə tədbirlər davam etdirilir.

İyulun 31-də Sumqayıt şəhəri və Abşeron rayonu ərazisində keçirilmiş növbəti belə tədbirlər zamanı Novxanı kəndi ərazisində, bağlar massivində və həmçinin orada yerləşən “Araz” supermarketi ətrafında məişət tullantılarının qalaqlanması faktları aşkar olunub.

İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) maddəsinin tələblərini pozduqlarına görə qeyd olunan marketin direktoru E.Əhmədov, Novxanı bələdiyyəsinin sədri Ş.Tağıyev və Sumqayıt bələdiyyəsinin sədri S.Əsədov barəsində protokollar tərtib edilmişdir.





E.Əhmədov 8 min, Ş.Tağıyev və S.Əsədov isə hər biri 3 min manat məbləğində cərimələnmişlər.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

***C.Natiq***

# QAYINATANIN QƏZƏBİ...

*Əvvəli ötən sayımızda.*

Əkbər bərk yorulduğundan yerinə uzanan kimi yuxuladı. Qızının da dediyindən bilirdi ki, o yatanda "yanında top atsalar" da ayılan deyildi. Hər şey planladığı kimi gedirdi. Əvvəlcə oğlanın ayaqlarını, sonra da əllərini kəndirlə bərk-bərk bağladı.

Səhərə yaxın Əkbər yuxudan ayılanda əl-qolunun bağlı olduğunu görüb nə baş verdiyini anlamadı. Başını qaldıranda qayınatasını gördü:



*-Akif əmi, məni niyə bağlamısan?*

*-Neçə vaxtdı sənin əlindən boğaza yığılmışam, indi hesablaşmaq vaxtıdır.*

Akif kişi onu gücə-billah asta-asta zirzəmiyə düşürdü.

Bədəncə sağlam və cüssəli olan Əkbər əllərini açmaq istəsə də bacarmadı. Elə bu vaxt Akif kərki ilə onun başına bir zərbə endirdi. Əkbər yerində səndələsə də özündə güc tapıb bağlı əlləri ilə qayınatasının sifətinə bir zərbə vura bildi. Akif zərbənin təsirindən yerə yıxılan gəncin boğaz nahiyəsinə daha bir zərbə vurdu. Canı artıq kürəkən adlı "bəla"dan qurtulmuşdu. Meyiti özü ilə gətirdiyi iri kisələrə büküb maşının yük yerinə qoydu və düz meşəyə sürdü. Ətrafa diqqətlə nəzər yetirdi. Torpaq bərk olduğundan quyunu çox da dərin qaza bilmədi. Əkbərin cəsədini sürüyüb quyuya saldıqdan sonra benzin töküb yandırdı. İzi itirmək üçün üzərinə xəzəl tökməyi də unutmadı.

Kəndə qayıdıb üst-başını səliqəyə saldı. Heçnə olmamış kimi yas yerlərinə də baş çəkib şəhərə qayıtdı.

Qızı və həyat yoldaşı Əkbəri soruşanda: "O, heç biz şəhərdən çıxmamış fikrini dəyişib maşından düşdü",- dedi...

Oğlunun evə gəlmədiyindən, üstəlik telefonuna da zəng çatmadığından narahat olan Əkbərin anası, digər övladı Ceyhuna bu barədə polisə məlumat verməyin vacib olduğunu dedi. Ceyhun qardaşının itkin düşməsi barədə Xətai RPİ-nin 34-cü Polis Şöbəsinə ərizə ilə müraciət etdi. İdarənin Cinayət Axtarış Şöbəsinin, Narkotiklərlə Mübarizə Bölməsinin, 34-cü PŞ və Bakı şəhər BPİ Təhlükəsiz Şəhər Xidmətinin əməkdaşlarının təxirəsalınmaz əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən 1960-cı il təvəllüdlü Akif Rzayev şübhəli şəxs qismində saxlanıldı. O, ilk olaraq Əkbərdən xəbərsiz olduğunu desə də sonra törətdiyi qətli etiraf etdi.

Hadisə barədə suallarımızı cavablandıran Xətai RPİ-nin əməliyyat işləri üzrə rəis müavini, polis polkovnik-leytenantı Zaur Nəsirov onu da əlavə etdi ki, Lerik RPŞ əməkdaşları ilə birlikdə davam etdirilən əməliyyat-axtarış tədbirləri nəticəsində Əkbər Nuriyevin cəsədi basdırıldığı yerdən çıxarılaraq aidiyyatı üzrə təhvil verilib. Toplanmış materiallar araşdırılması üçün Lerik rayon Prokurorluğuna göndərilib.

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# TARİXİMİZİ ÖYRƏNƏK



**Göyçə Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) ərazisində, Göyçə gölü ətrafında olan tarixi mahaldır. Göyçə mahalı azərbaycanlıların 1988-ci ilə qədər kompakt yaşadığı ərazilərdən biri olmuşdur.**

Mahal Göyçə gölünün sahilləri boyu geniş bir ərazini əhatə edir. Bu ərazi Rusiyaya müharibə ilə birləşdirilənə qədər (1747-1828-ci illərdə) İrəvan xanlığının, sonralar isə İrəvan quberniyasının tərkibində olub. Sovet hakimiyyəti illərində Ermənistan SSR rayonlaşdırılarkən Göyçə mahalı süni surətdə beş inzibati rayon arasında bölünüb: Çəmbərək, Basarkeçər, Aşağı Qaranlıq, Kəvər və Yelenovka rayonlarına.

Geniş otlaqlara malik olan Göyçə mahalında yaşayan əhali daha çox əkinçilik, maldarlıq, arıçılıq, bağçılıq, xalçaçılıq və balıqçılıqla məşğul olmuşdur. Göyçə Azərbaycan aşıq sənətinin beşiklərindən biri hesab edilir. Bölgə Azərbaycan ədəbiyyat və mədəniyyət tarixinə Aşıq Alı, Aşıq Ələsgər, Şair Məmmədhüseyn, Aşıq Əsəd, Aşıq Qurban kimi məşhur ustad saz və söz sənətkarlarını bəxş etmişdir.

**Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqda Göyçə mahalı tarixi Azərbaycan torpağı kimi onun tərkibində olub.** 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv. km. olmuşdur. 1920-ci ildən ADR-i işğal edən rus bolşevik imperiyası Azərbaycanın ərazisi olan Zəngəzuru, Göyçəni, Dərələyəzi və Dilican ərazisini qanunsuz şəkildə Ermənistana vermişdir.

"Kitabi-Dədə Qorqud"da rast gələn yer-yurd adlarının izini Göyçə gölü boyunca hər tərəfdə tapmaq olar. Bu eposda Göyçə mahalı, Göyçə gölü, Ağlağan dağı, Ayğır bulağı kimi toponimlər azərbaycanlıların qədim yaddaşının və mədəniyyətinin izidir. Göyçə mahalı cənubdan – Ağlağan təpəsi, Dəlik, Çənlibel dağları, Səlimgədiyi, şimalda isə Murğuz, Şahdağ silsiləsi ilə əhatə olunmuşdur.

**Göyçə mahalının kəndləri**

Bu siyahı 1829-1832-ci illərdə İ.Şopen tərəfindən aparılmış kameral siyahıyaalınmanın nəticələrinə əsasən tərtib edilmiş siyahılardan götürülmüşdür.

Bığlı Hüseyn, Zeynalağalı, Rəhmankənd, Ağqala, Əyrivəng, Qızılcıq (Əbulkəndi), Noradüz, Qışlaq, Kəvər, Qul Əli, Kosa Məmməd, Paşakəndi, Dəliqardaş, Küzəcik, Başkənd, Heyranıs, Atamxan, Vəliağalı, Təzəkənd, Dəlikdaş, Göl, Aşağı Adyaman, Yuxarı Adyaman, Əbdülağalı, Gözəldərə, Ağqıraq, Aşağı Qaranlıq, Yuxarı Qaranlıq, Zolağac, Kolanlıqırılan, Alçalı, Qarasaqqalqışlağı, Yarpızlı, Zağalı, Qızılbulaq, Qırxbulaq, Qanlı Allahverdi, Basarkeçər, Qoşabulaq, Aşağı Keyti (Salman kəndi), Baş Keyti, Ellicə, Daşkənd, Daş Keyti, Tatlı Qışlağı, Zərzibil, Zod, Ağyoxuş, Əyricə, Böyük Məzrə, Kiçik Məzrə, Kəsəmən, Şişqaya, Cil, Ardanış, Adatəpə, Şor Əli, Ağbulaq, Toxluca, Əzizli (Qaraqoyunlu), Nərimanlı, Gölkənd (Qaraqoyunlu dərəsi).

**1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələri nəticəsində Göyçə ərazisində dağıdılmış kəndlərin siyahısı**

Buğdatəpə, Hacımumuxan, Allahverdibəy, Üçtəpə, Kərimkənd, Yuxarı Altuntaxt, Aşağı Altuntaxt, Dəmirçi Poğos, Əyricə, Atdaş, Axsaxtovuz, Karvansaray, Qasımbaşı, Mədinə, Baş Gözəldərə, Xancığazoğlu, Qızılkilsə, Böyükağa, Ağkilsə, Göyçə, Sultanəli, Sətənağac, Qəmsar və adı unudulmuş 19 kənd.




Polisin keçirdiyi əməliyyat zamanı 10 kiloqramdan artıq narkotik vasitə və psixotrop maddə qanunsuz dövriyyədən çıxarılıb

Baş Narkotiklərlə Mübarizə İdarəsinin Cənub Bölgəsində Regional Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat nəticəsində narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan Astara rayon sakini Abdulla Məmmədov tutulub. Onun üzərində şəxsi axtarış zamanı 3 qrama yaxın narkotik vasitə tiryək aşkar olunaraq götürülüb.





Abdulla Məmmədovun ətrafında əlavə əməliyyat tədbirləri ilə onun Abşeron rayonu Masazır qəsəbəsində kirayə yaşadığı mənzildə külli miqdarda narkotik vasitə və psixotrop maddə saxladığı da məlum olub. Həmin ünvana baxış zamanı 855 qram heroin, 6 kiloqram 475 qram tiryək, 1 kiloqram 885 qram qurudulmuş marixuana və 904 qram psixotrop maddə metamfetamin aşkar edilərək götürülüb. Bu əməliyyat zamanı ümumilikdə 10 kiloqramdan artıq narkotik vasitə və psixotrop maddə qanunsuz dövriyyədən çıxarılıb. Abdulla Məmmədov ifadəsində narkotik vasitələri şəxsiyyəti istintaqa məlum olmayan "Əli" adlı İran vətəndaşından aldığını bildirib.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

*Natiq Abdullayev*

# Bob Parsons uğurunun sirri nədədir?

*Əvvəli 3-cü səhifədə.*

**13. Həyatdan ədalət gözləməyin**

Həyat ədalətsizdir. Unutmayın ki, ədalət haqqında düşünməkdən üz döndərdiyiniz zaman uğur sizin qapınızı döyəcək.

**14. Öz problemlərinizi özünüz həll etməyə çalışın**

Öz suallarınıza yalnız özünüz cavab tapdıqda, rəqabətədözümlü mövqe nümayiş etdirməyə başlayacaqsınız. Masura İbukanın dediyi kimi: «Elm və biznesdə uğur qazanmaq istəyirsənsə, axının əksi istiqamətində hərəkət etməyə çalışmalısan». Hər zaman ağlınızın bir küncündə tutmalı olduğunuz deyimlərdən biri də budur: «Müdrik insan özü-özünə məsləhət verən insandır».

**15. Heç vaxt özünüzü çox sərt şəkildə mühakimə etməyin.**

Sakitləşin və özünüzü ələ almağa çalışın. Unutmayın ki, həyatda qazandığımız uğurlara görə əslində şansın üzümüzə güldüyünə və bəxtimizin gətirdiyinə borcluyuq. Çünki hər şey bizim düşündüyümüzdən fərqlidir. Hər kəs düşünür ki, həyatının idarəsi yalnız onun öz əlindədir. Amma bu, yalnış fikirdir. Çünki bu dünyada heç bir insan öz həyatını tam şəkildə və təkbaşına idarə etmək iqtidarında deyil.

**16. Hər zaman gülümsəmək üçün bir səbəbiniz olsun**

İstənilən şəraitdə bu səbəbi tapmağa çalışın. Bu həyatı yaşadığınıza görə şükür edin və bu fikri unutmayın: «Vacib olan uzun ömür yaşamaq deyil, sənə bəxş edilən ömrü şən və firavan şəkildə yaşamaqdır».

# İyul ayının 29-dan avqustun 4-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 175 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 33 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 123, o cümlədən borclu şəxs qismində axtarışda olan 72 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 10 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 10 nəfər ölmüş, 2 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 96 fakt müəyyən edilmişdir.

# MARAQ DÜNYASI

## TOXUMLARDAN HAZIRLANAN MUMİYA

Hayfa şəhərində İsrail Milli Dəniz Muzeyinin kolleksiyasının uzun müddətdir bir hissəsi olan, uşaq ölçüsündə düzəldilmiş və təqribən üç min il yaşa malik mumiyanın əslində palçıq və toxumlardan ibarət imitasiya olduğu aşkarlanıb.

Üç min il yaşı olan, "mumiya" ilə Osirisin görkəmində Misir sarkofaqı, eləcə də digər kiçik sarkofaq uzun müddət İsrail muzeyi ekspozisiyasının bir hissəsi olub. Lakin muzeyin əməkdaşları onlarda mumiyalanmış ürəklərin qalması barədə qeydlərə şübhə ediblər. Güman edilirdi ki, böyük ölçüdəki sarkofaqda mumiyalanmış uşaq ola bilər.

Ekspertizaya göndərilən sarkofaqlar kompüter tomoqrafiyasının köməyilə tədqiq edilib. Böyük ölçüdə mumiyanın insana bənzədiyi, lakin toxumlardan və palçıqdan düzəldildiyi məlum olub. Hor Allahının görkəmindəki kiçik sarkofaqda mumiyalanmış quş aşkarlanıb. Alimlərin fikrincə, bu, şahin olub.

Alimlərdən biri bildirib ki, "Qədim Misirdə sərdabə düzəldəndə ora müəyyən artefaktlar, hətta mumiyalanmış heyvanlar qoyulurmuş. Həmçinin quşlar Misirdə mühüm rol oynayıb, qoruyucu hesab edilib. Onlar daha çox fironların sərdabəsinə yerləşdirilib".

## CƏRRAHLARIN YAŞIL VƏ MAVİ UNİFORMASININ SİRRİ

Heç düşünmüsünüzmü ki, əməliyyat otağındakı həkimlər nəyə görə ağ deyil, yaşıl, yaxud mavi rəngli forma geyinirlər?

İlk vaxtlarda tibb işçilərinin hamısının geyimi ağ rəngdə olub. Lakin 1914-cü ildə nüfuzlu həkimlərdən biri bu rəngdən imtina edərək əvvəlcə yaşıl, sonra isə mavi rəngi seçib.

Məsələ burasındadır ki, cərrah baxışlarını qanın tünd rəngindən həmkarlarının xalatına yönəldərkən ağappaq rəng bir neçə anlıq onu kor edə bilər. Eyni şeyi biz evdən çıxarkən günəşli havada qara baxanda yaşayırıq.

Bəs nə üçün bənövşəyi, ya sarı deyil, məhz yaşıl və mavi? Məsələ burasındadır ki, yaşıl və mavi rəng spektrində qırmızıya əksdir. Əməliyyat zamanı həkimlər məhz qana baxdıqları üçün yaşıl və mavi rəng nəinki həkimlərin gözlərini aydınlaşdırır, həmçinin qırmızı rəngə qarşı daha həssas edir. Bu da əməliyyat zamanı səhv ehtimalını azaldır.

## DƏNİZ SUYUNDA HƏLL OLAN PLASTİK PAKETLƏR

Yaponiyanın "Mitsubishi Chemical" şirkəti dəniz suyunda tamamilə həll olan plastik paketlər hazırlayıb.

Yeni paketlər formasına və fakturasına görə adi polietilendən fərqlənmir. Onun hazırlanmasında şəkər qamışından istifadə olunub. Şirkətdən bildiriblər ki, belə paketlər bir gün ərzində dəniz suyunda həll olur. Bu, okean və dəniz sularının plastik tullantılardan təmizlənməsinə böyük təsir göstərəcək.

Bununla yanaşı, alıcılara suda həll olan bitki toxumalarından hazırlanmış paketlər də təklif olunur. Eyni zamanda, alıcılardan marketlərə öz çantaları ilə gəlmələri də xahiş edilir.

*Ruhiyyə Əliyeva*

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9350
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik